# ÜZVİ KİMYADA GENETİK ƏLAQƏLƏRƏ AİD BƏZİ ÇALIŞMALRIN İZAHI

**N.Ə. Əkbərov**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Olimpiadaya hazırlaşan və ümumiyyətlə, üzvi kimyadan biliklərini dərinləşdirmək istəyən şagirdlərə kömək məqsədilə yazılmış bu məqalədə bəzi üzvi sinif birləşmələr arasındakı genetik əlaqələr, retrosintetik analiz metodlarının bəzi nümunələri - bir üzvi maddədən bu və ya digər üzvi maddənin (tərkibindəki karbon atomlaının sayı dəyişməyən, artıq və ya az olan – karbon zəncirinin uzanması və ya qısalması ilə nəticələnən birləşmələrin) almasına aid çalışmalar ətraflı və sistemli şəkildə izah edilmiş, üzvi birləşmələr arasındakı genetik əlaqələr aydınlaşdırılmışdır. Bəzi üzvi maddələrin, həmçinin, alternativ üsullarla sintezi də nəzərdən keçirilmişdir.

Bir çox vəsaitlərdə üzvi kimyanın müxtəlif sinif birləçmələrinə və onlar arasındakı genetik əlaqələrə aid çoxlu çalışmalar verilmişdir [1-7]. Lakin çalışmaların geniş izahına, ətraflı müzakirəsinə bu kitablarda yer ayrılmamışdır. Ona görə də güman etmək olar ki, bu məqalədə verilən çalışmaların izahı və onların ciddi analizi şagirdlər üçün maraqlı olacaqdır.

**Çalışma1.** Etandan və digər lazımi reagentlərdən istifadə edərək, etandiol–1,2-ni necə almaq olar? Sintez planını tərtib edin və müvafiq reaksiya tənliklərini yazın.

**Çalışma1-in izahı.** Üzvi kimya kursundan alınan biliklərə görə, etandiol–1,2 (etilenqlikol) etilenin $KMnO_4$ iştirakı ilə oksidləşməsindən bir mərhələ ilə alınır:



Etilen də, öz növbəsində, etilbromidin eliminləşməsindən (dehidrogenbromidləşməsindan) alınır:

$$CH_3CH_2Br \xrightarrow[-(KBr + H_2O)]{+KOH\ (spirt)} CH_2 = CH_2$$

Nəhayət, etilbromid etanın radikal mexanizmilə gedən bromlaşmasından sintez olunur:

$$CH_3{-}CH_3 + Br_2 \xrightarrow{h\nu} CH_3CH_2Br + HBr$$

Bələliklə, sintezin planı aşağıdakı sxemlə ifadə oluna bilər:

$$CH_3{-}CH_3 \xrightarrow[-HBr]{+Br_2(h\nu)} CH_3{-}\underset{\displaystyle Br}{\underset{|}{C}}H_2 \xrightarrow[-(KBr + H_2O)]{+KOH\ (C_2H_5OH)}$$

$$\longrightarrow CH_2{=}CH_2 \xrightarrow[25^oC]{+KMnO_4+H_2O} \underset{\displaystyle OH}{\underset{|}{C}}H_2{-}\underset{\displaystyle OH}{\underset{|}{C}}H_2$$

***Etilenqlikolu başqa bir metodla da sintez etmək olar.*** Məsələn, etilenoksid tsiklinin qırılması ilə:

$$\underset{\diagdown O \diagup}{CH_2 - CH_2} \xrightarrow{H_3O^+} \underset{\displaystyle OH}{\underset{|}{C}}H_2{-}\underset{\displaystyle OH}{\underset{|}{C}}H_2$$

Etilenoksidin özü də bir neçə üsulla alına bilər. Onlardan ən əlverişlisi peroksiturşular vasitəsilə aparılan sintezdir:

$$H_2C{=}CH_2 \xrightarrow[CH_2Cl_2,\ 25^oC]{RCOOOH} \underset{\diagdown O \diagup}{H_2C - CH_2}$$

Etilenin sintezi isə əvvəlki misalda olduğu üsulla həyata keçirilir (halogenləşmə və dehidragenhalogenləşmə) ilə:

$$CH_3{-}CH_3 \xrightarrow[-HBr]{+Br_2(h\nu)} CH_3CH_2Br \xrightarrow[-(KBr+H_2O)]{+KOH\ (spirt)} CH_2{=}CH_2$$

Deməli, başlanğıc maddə kimi etandan istifadə etməklə etandiol–1,2 iki müxtəlif üsulla – qarşılıqlı sintez metodları ilə əldə oluna bilər:

$$CH_3{-}CH_3 \xrightarrow[-HBr]{+Br_2(h\nu)} CH_3{-}\underset{\displaystyle Br}{\underset{|}{C}}H_2 \xrightarrow[-(KBr + H_2O)]{+KOH\ (C_2H_5OH)}$$

$$\longrightarrow CH_2{=}CH_2 - \begin{cases} \xrightarrow[25^oC]{+KMnO_4+H_2O} \underset{\displaystyle OH}{\underset{|}{C}}H_2{-}\underset{\displaystyle OH}{\underset{|}{C}}H_2 \\ \xrightarrow[CH_2Cl_2,\ 25^oC]{+RCOOOH} \underset{\diagdown O \diagup}{H_2C - CH_2} \xrightarrow{+H_3O^+} \underset{\displaystyle OH}{\underset{|}{C}}H_2{-}\underset{\displaystyle OH}{\underset{|}{C}}H_2 \end{cases}$$

Beləliklə, etandiol–1,2 sintez olunur.

**Çalışma 2.** Molekulunda maksimum iki karbon atomu olan üzvi maddədən başlanğıc maddə kimi istifadə edərək, 4–xlor–4–metilpenten–2-ni necə almaq

olar? Sintez planını tərtib edin və müvafiq reaksiya tənliklərini yazın.

**Çalışma2-in izahı.** Əvvəlcə, sintezin əsas hissəsini özündə əks etdirən aralıq məhsullar:

a) aseton

b) propenilmaqnezium-bromid alınır.

2-ci Üsulda başlanğıc maddə kimi metilxlorid və asetaldehid götürülür. Onlardan istifadə etməklə, məlum reaksiyalar vasitəsilə 7 mərhələli proseslə son məhsul sintez edilir. Əvvəlcə, metilxloridin maqneziumla efirdə reaksiyasından Qrinyar reaktivi (1-ci mərhələ) sintez olunur. Sonra onun asetaldehidə birləşmə reaksiyasının məhsulu hidrolizə uğradırılıaraq, propanol-2 alınır ki, o da öz növbəsində oksidləşərək (2-li spirt oksidləşdikdə keton alınır), asetona çevrilir:



Propenilmaqnezium-bromid isə aşağıdakı sxem üzrə sintez olunur:



Sintezin əsas mərhələsi:



Bu sintez planında əsas aralıq məhsul aseton və propenilmaqnezium-bromiddir. Aseton (sxem a)) başlanğıc maddə kimi metilxloriddən, propenilmaqnezium-bromid isə (sxem b)) asetilendən istifadə etməklə sintez edilir. Sonra, aralıq maddələrin Qrinyar reaktivlərinin karbonilli birləşmələrlə məlum metodla reaksiyasına uyğun spirt (hidrolizdən sonra) və nəhayət, spirtin halogenləşməsindən son məhsul sintez edilir.

**Çalışma 3**. Başlanğıc maddə kimi molekulunda maksimum iki karbon atomu olan üzvi maddədən və digər lazımi qeyri-üzvi reaktivlərdən istifadə etməklə, 2-metilbuten-2-nin sintezini planlaşdırın və müvafiq reaksiya tənliklərini yazın.

**Çalışma3-ün izahı.** Bu sintezi iki müxtəlif yolla həyata keçirmək olar:

1) Əvvəlcə, ikiqat rabitə başlanğıc maddənin molekuluna karbon zənciri tamamilə qurulmazdan əvvəl daxil edilir, sonra isə uyğun karbon zənciri qurulur.

2) Əvvəlcə, sintezi tələb olunan üzvi maddənin karbon zənciri tamamilə qurulur, sonra isə ikiqat rabitə həmin zəncirə daxil edilir. 1-ci Üsulda başlanğıc maddə kimi asetilen götürülür və onun hidrogen atomunun mütəhərrikliyindən istifadə edərək və üzvi kimya kursundan alınan bilik və vərdişləri tətbiq edərək, altı mərhələ ilə son məhsul, nəhayət ki, sintez edilir. Sonuncu 6-cı mərhələdə vinilbromidlərin (konkret olaraq, 2–brombuten–2-nin) litium–dialkilkupratlar vasitəsilə alkilləşməsi müvafiq alkenin alınmasına gətirir. 5-ci Mərhələdə istifadə olunan 2–brombuten–2 dimetilasetilenə hidrogen–bromidin trans–birləşməsi nəticəsində alınır. Dimetilasetilen də asetilen molekulundakı hidrogen atomlarının məlum metodla metil qrupu ilə əvəz olunması nəticəsində sintez olunur:




2-ci Üsulda başlanğic maddə kimi metilxlorid və asetaldehid götürülür. Onlardan istifadə etməklə məlum reaksiyalar vasitəsilə 7 mərhələli proseslə son məhsul sintez edilir. Əvvəlcə, metilxloridin maqneziumla efirdə reaksiyasından Qrinyar reaktivi sintez olunur (1-ci mərhələ). Sonra onun asetaldehidə birləşmə reaksiyasının məhsulu hidrolizə uğradılaraq propanol-2 alınır ki, o da öz növbəsində asanlıqla oksidləşərək (2-li spirt oksidləşdikdə keton alınır) asetona çevrilir. Asetonun etilmaqnezium-xloridlə (etil-xloridin maqneziumla efirdə reaksiuyasından alınır) reaksiya məhsulunun hidrolizindən 2–metil–butanol–2 alınır. Nəhayət, alınmış 3-lü spirt Zaytsev qaydası ilə dehidratlaşır və son mərhələdə tələb olunan karbon zənciri tamamilə qurulduqdan sonra ikiqat rabitə molekulda əmələ gəlir:



Beləliklə, tələb olunan maddənin sintezi iki üsulla həyata keçirilə bilər.

**Çalışma 4**. Başlanğıc maddə kimi molekulunda maksimum dörd karbon atomu olan üzvi maddədən və digər qeyri-üzvi reaktivlərdən istifadə edərək, 5–brom–5–butilnonanın sintezini planlaşdırın və müvafiq reaksiya tənliklərini yazın.

**Çalışma4-ün izahı.** Retrosintetik analiz metoduna görə, alınması tələb olunan maddənin quruluş formulundan istifadə edərək, onun sintezini həyata keçirməyin mümkün variantlarını axtaraq. Sintezi tələb olunan maddə üçlü-alkilbromiddir. Alkilbromidlərin ən əlverişli sintez üsulu uyğun spirtlərin hidrogen–bromidlə reaksiyasıdır:

$$R_3C - OH + HBr \rightarrow R_3C - Br + H_2O$$

Bu üsulla 5–brom–5–butilnonanı sintez etmək üçün başlanğıc maddə kimi üçlü spirt: 5–butilnonanol–5 lazımdır. Bu spirt bütün radikalları eyni olan tri–n–butilkarbinol adlı üçlü spirtdir: (n–$C_4H_9$)$_3$COH. Bütün alkil radikalları eyni olan $R_3COH$ tipli üçlü spirtlər məlum metodla: müvafiq alkenin diboranla reaksiyasından alınmış borüzvi birləşmənin karbon mono oksidlə (CO ilə) əmələ gətirdiyi adduktun qələvi mühitdə oksidləşməsi yolu ilə sintez olunur. Sonda isə spirtin OH qrupu Br ilə əvəzlənir. Beləliklə, sintezin ümumi sxemi aşağıdakı kimi olur:

$$CH_2{=}CH{-}CH_2{-}CH_3 \xrightarrow[THF]{+BH_3} (n{-}C_4H_9)_3\,B \xrightarrow[100^oC]{+CO} (n{-}C_4H_9)_3B...OC \longrightarrow$$

$$\xrightarrow[OH^-]{+H_2O_2} (n{-}C_4H_9)_3C{-}OH \xrightarrow[-H_2O]{+HBr} CH_3{-}(CH_2)_3{-}\underset{\underset{\underset{CH_3}{|}}{\underset{(CH_2)_3}{|}}}{\overset{\overset{Br}{|}}{C}}{-}(CH_2)_3{-}\,CH_3$$

**Çalışma 5**. Başlanğıc maddə kimi etandan və digər lazımi reaktivlərdən istifadə edərək, propanol–1-in:sintezini planlaşdırın və müvafiq reaksiya tənliklərini yazın.

**Çalışma 5-in izahı.** Şübhəsiz ki, iki karbonlu üzvi maddədən üç karbonlu üzvi maddənin sintezi xüsusi sintez yaradıcılığı tələb edir. Yenə də retrosintetik analiz metodundan və üzvi kimya kursundan əldə olunan biliklərdən istifadə edərək, propanol–1-in hansı birmərhələli yolla sintez oluna biləcəyini yadımıza salaq.

Bu üç yolla mümkündür:

1) Propanalın reduksiyası ilə:

$$CH_3{-}CH_2{-}C\begin{matrix}{/\!\!/}O\\ \diagdown H\end{matrix} \xrightarrow[H_2O]{+NaBH_4} CH_3{-}CH_2{-}\underset{\underset{OH}{|}}{CH_2}$$

2) Propenin hidratlaşması ilə:

$$CH_2{=}CH{-}CH_3 \xrightarrow{+BH_3;\ THF} CH_3CH_2CH_2OH$$

$$\text{və ya}\quad CH_2{=}CH{-}CH_3 \xrightarrow{+H_2O_2;\ OH^-} CH_3CH_2CH_2OH$$

3) Etilenoksidin metilmaqnezium–xloridlə qaqşılıqlı təsir məhsulunun hidrolizi ilə:

$$\underset{\diagdown\ \diagup\atop O}{H_2C - CH_2} \xrightarrow[efir]{+CH_3MgCl} \underset{CH_3}{\underset{|}{H_2C}} - \underset{OMgCl}{\underset{|}{CH_2}} \xrightarrow[-Mg(OH)Cl]{+H_2O} CH_3CH_2CH_2OH$$

1-ci Reaksiyada aldehid birli spirtə natrium-borhidrid vasitəsilə reduksiya olunur. Əgər son məhsulun sintezi üçün bu metod seçilərsə, onda propanalın necə alınması barədə düşünmək lazım gələcək.

2-ci Reaksiyada alken spirtə borhidrid vasitəsilə oksidləşməklə çevrilir.

Əgər sintez üçün bu metod seçilərsə, onda propenin alınmasını planlaşdırmaq lazımdır.

3-cü Reaksiyada isə etilen oksidinin Qrinyar reaktivi ilə qarşılıqlı təsir məhsulunun hidrolizi tələb olunan maddəni sintez etməyə imkan verir. Əgər sintez üçün bu metod seçilərsə, onda etilen oksidinin sintezi barədə düşünmək lazım gəlir.

Əvvəlcə, 1-ci metoddan istifadə edərək, əks istiqamətdə başlanğıc maddəyə tərəf tədqiqatımızı davam etdirək. Deməli, biz birmərhələli proseslə propanalı sintez etməliyik. Propanalın özü də üç üsulla alına bilər:

a) propanol–1-in oksidləşməsi ilə

b) buten–1-in ozonolizi ilə

c) 1–xlorpropanın $S_N$–mexanizmi ilə qələvi mühitdəki hidrolizi ilə.

Deyilənləri sxematik olaraq göstərək:




a) Üsulu sintezi tələb olunan maddədən istifadə etdiyinə görə yaramır.

b) Üsulunda buten–1-dən istifadə edildiyinə görə, onun birmərhələli sintez üsulu müəyyən edilməlidir. Buten–1 butanol–1-in molekuldaxili dehidratlaşmasından alına bilər:

$$\underset{\textit{butanol–1}}{CH_3CH_2CH_2CH_2OH} \xrightarrow[-H_2O]{H^+;\ t^o} \underset{\textit{buten–1}}{CH_3CH_2CH{=}CH_2}$$

Bəs butanol–1necə alına bilər? Onun üçün əlverişli üsullardan biri etilenoksidə etilmaqnezium-xloridlə təsir etməkdir:




Qrinyar reaktivi də öz növbəsində etilxloriddən, etilxlorid isə etanın xlorlaşmasından alınır:

$$H_3C{-}CH_3 \xrightarrow[-HCl]{+\ Cl_2;(h\nu)} CH_3{-}CH_2Cl \xrightarrow[efir]{+Mg} CH_3CH_2MgCl$$

Etilenoksidin də etandan alınması barədə düşünmək lazımdır. Məlumdur ki,

alkenlər asanlıqla epoksidləşirlər:



Etilen isə bir az əvvəl etandan alınmış etilxloridin dehidrogenxloridləşməsindən alına bilər:

$$CH_3CH_3 \xrightarrow[-HCl]{+Cl_2(h\nu)} CH_3CH_2Cl \xrightarrow[-(KCl + H_2O)]{+KOH\ (spirt)} CH_2{=}CH_2$$

Beləliklə, etandan başlanğıc maddə kimi istifadə edərək 10 mərhələli proseslə propanol–1-in sintez planının bir variantı hazırlandı. Onu sxematik olaraq aşağıdakı kimi göstərmək olar:



Etandan istifadə edərək 2-ci reaksiya tənliyi üzrə propanol–1-in sintezi 14 mərhələdən ibarət olub, aşağıdakı ümumi sintez sxemi ilə ifadə olunur:



Etandan 7 mərhələli proseslə metilmaqnezium-xlorid alınır. Sonra isə etandan 2 mərhələli proseslə asetaldehid sintez olunur:

$$CH_3CH_3 \xrightarrow[-HCl]{+Cl_2;(h\nu)} CH_3CH_3Cl \xrightarrow[-Cl]{+OH^-;\ DMSO} CH_3{-}C(=O)H$$

1 2

Nəhayət, asetaldehid və metilmaqnezium-xloriddən istifadə edərək 5 mərhələli proseslə son məhsul sintez edilir:

$$CH_3{-}C(=O)H + CH_3MgCl \xrightarrow{efir} CH_3{-}CH(OMgCl){-}CH_3 \xrightarrow[-Mg(OH)Cl]{+H_2O}$$

1 2

$$\longrightarrow CH_3{-}CH(OH){-}CH_3 \xrightarrow[-H_2O]{H^+;\ t^o} CH_2{=}CH{-}CH_3 \xrightarrow{BH_3;\ THF}$$

3 4

$$\longrightarrow (C_3H_7)_3B \xrightarrow[OH^-]{H_2O_2} CH_3CH_2CH_2OH$$

5

Etandan istifadə edərək 3-cü reaksiya tənliyi üzrə proponal–1-in sintezi isə 12 mərhələdən ibarət olub, aşağıdakı ümumi sxemlə ifadə olunur: əvvəlcə, 7 mərhələli proseslə metilmaqnezium-xlorid sintez olunur (bax. 2-ci üsulda olduğu kimi), sonra isə 3 mərhələli proseslə etandan etilenoksid sintez edilir:

$$CH_3CH_3 \xrightarrow[-HCl]{+Cl_2;(h\nu)} CH_3CH_2Cl \xrightarrow[-(KCl + H_2O)]{+KOH\ (spirt)}$$

1 2

$$\longrightarrow H_2C = CH_2 \xrightarrow[CH_2Cl_2;\ 25^oC]{+C_6H_5COOOH -} H_2C - CH_2\ (\backslash O /)$$

3

Nəhayət, sintez olunmuş epoksidlə metilmaqnezium-xloridin qarşılıqlı təsirindən alınmış adduktun hidrolizindən (2 mərhələli proseslə) son məhsul əmələ gəlir:

$$H_2C{-}CH_2\ (\backslash O /) + CH_3MgCl \xrightarrow{efir} CH_2(CH_3){-}CH_2(OMgCl) \xrightarrow[-Mg(OH)Cl]{+H_2O} CH_3CH_2CH_2OH$$

1 2

Etandan propanol–1-in hər üç metodla sintezi praktik olaraq mümkündür və hər üç sintez metodu qoyulmuş tələbi yerinə yetirir. Lakin bunlardan hansı daha əlverişlidir, hansı daha asanlıqla və daha tez baş verir? Bu sual da kimyaçı-sintetik üçün əsas suallardan biridir. Kimyaçı əgər bir neçə alternativ sintez metodu ilə

qarşılaşırsa, laboratoriya sintezinin seçilməsi bir neçə faktorlarla müəyyənləşir: 1–son məhsulun orta çıxımı; 2–son məhsulun maya dəyəri; 3–sintez qurğusunun asan əldə olunması; 4–prosesin təhlükəsizliyi; 5–sintez vaxtının az olması; 6–mərhələlərin nisbətən az olması; 7–reagentlərin asan əldə olunması.

Əgər təklif olunan sintez planları bu şərtləri ödəməzsə, onda sintetik-kimyaçı başqa bir sintez variantı axtarır. Ona bu yolda əldə etdiyi elmi və nəzəri biliklər, praktik vərdişlər, internet məlumatları, bəzən də intiusiya kömək edir. Məsələn, yuxarıdakı nümunədə əgər etandan propanol–1-in sintezi üçün təklif olunmuş bu üç metodun heç biri yararlı olmazsa, onda digər bir üsul da təklif olunur. Bu üsulu da nəzərdən keçirək. Belə ki, bu üsulda Qrinyar reaktivinin karbon dioksidlə qarşılıqlı təsirindən karbon turşusunun maqnezium duzu alınır ki, o da protonlaşdıqda müvafiq karbon turşusuna çevrilir. Sonra isə karbon turşusu litium- alüminiumhidrid vasitəsilə son məhsula reduksiya olunur və beləliklə, 5 mərhələli sintez baş verir:




Beləliklə, etandan istifadə etməklə propanol–1-in sintezinin təklif olunmuş planlarından axırıncı (dördüncü) variantı daha asan, daha sadə, az mərhələli olduğundan və tez başa çatdığından, məhz həmin sintez metoduna daha çox üstünlük verilməlidir.

## İstifadə edilmiş ədəbiyyat:

1.Мануйлов А. В., Родионов В.И. Основы химии. Интернет-учебник, основан в 2001 г. Последнее обновление 2017 г.

2.Еремин В.В., Кузьменко Н.Е., Лунин В.В., Дроздов А.А., Теренин В.И. Химия. 10 класс. Профильный уровень: учеб. для общеобразоват. учреждений. 2-е изд., М.: Дрофа, 2012

3. Рудзитис Г.Е., Фельдман Ф.Г. Неорганическая химия. Органическая химия. Учеб. для общеобразоват. учреждений. 13-е изд. М.: Просвещение, 2009

4. Кузьменко Н.Е., Еремин В.В., Попков В.А. Начала химии, Современный курс для поступающих в вузы. Т.1/ Кузьменко Н.Е. и др.-16-е изд., перераб. и доп.-М.:Экзамен, 2016.

5.Əkbərov N.Ə., Cəfərov İ.A.,Əkbərova X. N., Zalov Ə.Z., Mirzəyeva M.Ə.,İskəndərova K.O. Üzvi kimyadan praktikum. Dərs vəsaiti. Bakı, 2018

6.Əkbərov N.Ə., Məmmədova R.K., Üzvi Sintez (nümunələr, mühüm reaksiyalar, çalışmalar), Dərs vəsaiti, ADPU, Bakı, 2014

7.Əkbərov N.Ə., Mirzəyeva M.Ə., Babayeva G.V., İskəndərova K.O., Üzvi sintez ( sərbəst işlər, sual və tapşırıqlar), Dərs vəsaiti, ADPU, Bakı, 2017.

*Н.А.Акперов*

**Некоторые упражнения по генетическим связям в органической химии с объяснениями**

**РЕЗЮМЕ**

Эта статья написана для учащихся, которые хотят готовиться к олимпиадам и углубить свои знания в области органического синтеза. В ней обсуждаются генетическая связь между различными классами органических соединений, приведены некоторые примеры ретросинтетического метода анализа- получение от простых органических соединений других более сложных веществ и на этих примерах систематически объяснены генетическая связь между органическими соединениями. Рассмотрены также альтернативные методы синтеза некоторых органических соединений.

*N.A. Akberov*

**Some exercises on genetic relations in organic chemistry with explanations**

**SUMMARY**

This article is written for students who want to prepare for competitions and to deepen their knowledge in the field of organic synthesis. It discusses the genetic relationship between various classes of organic compounds, gives some examples of the retrosynthetic method of analysis — obtaining from simple organic compounds other more complex substances, and using these examples systematically explained the genetic relationship between organic compounds. Alternative methods for the synthesis of some organic compounds are also considered.

**Açar sözlər:** üzvi birləşmələr, genetik əlaqələr, retrosintetik analiz metodları, karbon zənciri, başlanğıc maddə, aralıq məhsullar, reaksiya məhsulu, üzvi sintez, etan, etilen, etilenqlikol.

**Ключевые слова:** органические соединения, генетические связи, ретросинтетические методы анализа, углеродная цепь, исходное соединения, промежуточные продукты, продукты реакции, органический синтез, этан, этилен, этиленгликоль.

**Key words:** organic compounds, genetic bonds, retrosynthetic methods of analysis, carbon chain, parent compound, intermediate products, reaction products, organic synthesis, ethane, ethylene, ethylene glycol.